

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 152 (21.813)**

*12 avqust 2017-ci il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


## Enerji təhlükəsizliyi milli təhlükəsizliyin əsas elementidir

### *Naxçıvan Muxtar Respublikasında bu sahədə mühüm işlər görülür*

***Hər bir dövlətin dünyadakı imici və bir dövlət olaraq nüfuzu onun həyata keçirdiyi milli inkişaf və təhlükəsizlik siyasəti ilə bilavasitə bağlıdır. Milli inkişaf və təhlükəsizlik siyasəti ölkənin siyasi, iqtisadi, sosial və mənəvi inkişafının, xarici aləmdən qaynaqlanan təhlükələrə qarşı müqavimət gücünün göstəricisi kimi çıxış edir. Enerji təhlükəsizliyi isə müasir dövrdə milli təhlükəsizliyin əsas potensial bazası kimi daha ön planda mövqe tutur. Çünki bir ölkənin enerji təhlükəsizliyinin təmin olunması onun iqtisadi davamlılığını şərtləndirməklə yanaşı, siyasi gücünü, deməli, həm də nüfuzunu artırır. Digər tərəfdən, cəmiyyət inkişaf etdikcə, insanların tələbatları artdıqca, enerji və resurs tələbləri də artır. Təbii ehtiyatların məhdudluğu, enerji resurslarından səmərəli istifadə məsələləri bu baxımdan hər bir ölkədə gələcəyə hesablanmış strateji inkişaf xəttinin əsasını təşkil edir.***

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru Seymur Talıbovun "Enerji təhlükəsizliyinin beynəlxalq-hüquqi problemləri" adlı monoqrafiyasında oxuyuruq: "İnsan həyatının təminatında enerji resurslarının əhəmiyyəti davamlı olaraq artdığından enerji resursları insan həyatının keyfiyyət standartı olaraq qiymətləndirilməkdədir. Nobel mükafatçısı, akademik Jores Alferov qeyd edir ki, bu gün bəşəriyyətin qarşısında energetikadan daha əhəmiyyətli bir problem dayanmır. Sivilizasiyanın mövcudluğu onun həllindən asılıdır..."

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri muxtar respublikanın enerji təhlükəsizliyini xarakterizə edərkən demişdir: ***"Hər bir ölkə üçün elektrik enerjisi strateji sahə hesab edilir. Bu gün dünya ölkələrində ərzaq və enerji təhlükəsizliyi üzrə proqramlar qəbul olunaraq icra edilir. Enerji, ərzaq təhlükəsizliyi təmin olunan ölkələrin iqtisadiyyatı isə sabit və davamlı inkişaf edir. Azərbaycan Respublikasında da ərzaq və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahələrin inkişafı diqqət mərkəzində saxlanılır. Muxtar respublikada yeni elektrik stansiyaları tikilir, əhalinin və iqtisadiyyatın enerjiyə olan tələbatı etibarlı şəkildə ödənir. Artıq Naxçıvan elektrik enerjisi idxal edən muxtar respublikadan elektrik enerjisi ixrac edən muxtar respublikaya çevrilmişdir. Enerji təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir".***

Qeyd edək ki, ölkəmizdə hələ 2004-cü ildən qəbul olunmuş "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"na əsasən enerji təminatı sahəsində resursəvəzləyici potensial əldə olunması strategiyası həyata keçirilir. Həmin proqramda qeyd edilir ki, Naxçıvan Muxtar Respublikasının enerji sisteminin ölkənin əsas enerji sistemi ilə əlaqəsinin olmadığını nəzərə alaraq, ilk növbədə, muxtar respublikada orta, kiçik, mikro su elektrik stansiyalarının tikilməsi daha məqsədəuyğundur. Bu işin təşviqi kimi bərpa olunan enerji mənbələrinin hasilatı üçün texnoloji avadanlıqların istehsalı Naxçıvan Muxtar Respublikasında qurulmalıdır. Ötən dövrdə bu sahədə ciddi addımlar atılmış, müxtəlif həcmli enerji istehsal edən obyektlər istifadəyə verilmişdir. Belə ki, 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında dizel yanacağı ilə işləyən enerji turbinləri təbii qazla işləmə rejiminə keçirilmiş, ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası tikilib istismara verilmişdir. Vurğulamaq lazımdır ki, muxtar respublikanın əlverişli iqlim şəraiti və coğrafi mövqeyi ekoloji cəhətdən təmiz, alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. Bu, eyni zamanda ekoloji baxımdan təmiz bir enerji mənbəyi kimi ətraf mühitin qorunması və yüksək texnologiyaların tətbiqi baxımından çox əhəmiyyətlidir. Mövcud imkanlardan düzgün istifadənin nəticəsidir ki, 2006-cı ildə Şahbuz rayonunda Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası, 2010-cu ildə Ordubad rayonunda Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası, 2014-cü ildə Şərur rayonunda 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik stansiyaları, 2015-ci ildə Babək rayonunda 20 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir.





Bu məlumatların ardından müqayisəli statistikaya müraciət etmək yerinə düşər: əgər 1995-ci ildə muxtar respublikada 1 elektrik enerjisi istehsal edən müəssisə fəaliyyət göstərirdisə, hazırda bu müəssisələrin sayı 8-ə çatdırılmışdır. 1995-ci ildə muxtar respublikada 111 milyon 500 min kilovat-saat elektrik enerjisi istehsal olunmuşdursa, 2016-cı ildə bu göstərici 4 dəfə artaraq 437 milyon 917 min kilovat-saata çatdırılmışdır. Yeni yaradılmış güclər daxili istehlakı tam ödəməklə yanaşı, muxtar respublikanı enerji ixrac edən regiona çevirmişdir. 2016-cı ildə muxtar respublikada istehsal olunan elektrik enerjisinin 204 milyon 321 min kilovat-saatı və ya 46,6 faizi su elektrik stansiyalarında, 203 milyon 939 min kilovat-saatı və ya 46,6 faizi istilik elektrik stansiyalarında, 29 milyon 657 min kilovat-saatı və ya 6,8 faizi isə Günəş Elektrik Stansiyasında istehsal edilmişdir. Alternativ və bərpa olunan elektrik stansiyalarında elektrik enerjisi istehsalının həcmi ümumi istehsalın 53,4 faizini təşkil etmişdir. Energetika üzrə ekspertlərin fikrinə görə, bu göstərici çox nadir hesab olunur. Dünya ölkələri içərisində alternativ və bərpa olunan elektrik stansiyalarında istehsal olunan enerjinin miqdarı ümumi istehsalın 50 faizdən çoxunu təşkil edən cəmi bir neçə ölkə mövcuddur.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyi ilə bağlı məqsədyönlü tədbirlər hazırda da davam etdirilir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2017-ci il yanvar ayının 11-də muxtar respublikamıza səfəri çərçivəsində Ordubad Su Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak etmiş, muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək demişdir: ***"Ordubad rayonunda elektrik stansiyasının təməli qoyuldu. Bu, çox böyük layihədir, böyük stansiya olacaq, 36 meqavat gücündə su elektrik stansiyası tikiləcək. Bu, Naxçıvan Muxtar Respublikasının iqtisadi və enerji potensialını böyük dərəcədə gücləndirəcək".***

Naxçıvan Günəş Elektrik Stansiyasının gücünün artırılması ilə bağlı tədbirlərə isə bu ilin may ayından başlanılıb. Belə ki, İsveçrənin Ped Şirkəti ilə muxtar respublikanın Dövlət Energetika Xidməti arasında imzalanan müqaviləyə əsasən Günəş Elektrik Stansiyasında 7 min 700 ədəd günəş paneli quraşdırılması və şəbəkəyə qoşulması nəzərdə tutulub. Stansiyanın baş mühəndisi Azad Məmmədov dedi ki, artıq burada işlər yekunlaşmaq üzrədir. Onun sözlərinə görə, əvvəllər quraşdırılmış günəş panelləri 255 vatlıq idisə, yeni quraşdırılanlar 260 vatlıqdır. Bu işlər tam həyata keçirildikdən sonra stansiyanın istehsal gücü 30 milyon kilovat-saatdan 33 milyon kilovat-saata qədər artacaq. Ötən il Günəş Elektrik Stansiyasında elektrik enerjisi istehsalının 29 milyon 922 min kilovat-saat olduğunu deyən baş mühəndis bildirdi ki, bu ilin ilk 6 ayında stansiyada 14 milyon 365 min kilovat-saat elektrik enerjisi istehsal olunub. Qeyd edək ki, muxtar respublika ərazisində günəşli saatların orta illik kəmiyyətinin 2600-2800 saat təşkil etməsi Günəş Elektrik Stansiyasının səmərəli fəaliyyətinə imkan verir.

Xatırladaq ki, Günəş enerjisi və digər alternativ enerji mənbələrindən istifadə olunması ilə elektrik enerjisi alınması üçün Yer kürəsinin hər yerində imkanlar eyni deyildir. Bu baxımdan Naxçıvan Muxtar Respublikasının yerləşdiyi cənub en dairələrində günəşli günlərin sayı belə məqsədli layihələrin rentabelliyini artırır. Bundan əlavə, Culfa rayonu ərazisində külək elektrik stansiyasının yaradılması ilə bağlı yeni layihənin həyata keçirilməsi enerji sektorunda çoxşaxəli enerji mənbələrindən maksimum yararlanmaq imkanlarını ortaya qoyur.

Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyi istiqamətində dövlətimizin həyata keçirdiyi məqsədyönlü işlər nəticəsində artıq regionda külək, istilik, həm də yerli hidroenerji potensialına əsaslanan etibarlı enerji infrastrukturu yaradılmışdır. Muxtar respublikada enerji təhlükəsizliyi ilə bağlı həyata keçirilən tədbirləri yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev demişdir: ***"Elektrik enerjisi ilə problem yoxdur. Hesab edirəm, gün gələcək ki, Naxçıvan bütün enerji tələbatını bərpa olunan enerji növləri hesabına təmin edəcək".***

İndi Naxçıvanda istehsal edilən elektrik enerjisinin tələbatdan artıq hissəsinin xaricə ixrac olunması məhz düşünülmüş iqtisadi və siyasi addımların atılmasından, muxtar respublikanın gələcək inkişafının prioritet istiqamətlərindən biri kimi həyata keçirilmiş tədbirlərin nəticəsindən irəli gəlir. Bu sahədə görülən işlərin davamlı xarakter daşıması Naxçıvanın yaxın gələcəkdə enerji potensialını daha da artıracaq. Bu isə muxtar respublikanın milli təhlükəsizliyinə öz töhfəsini verməklə yanaşı, digər regionlarla da əməkdaşlığın yüksələn xətt üzrə inkişafına zəmin yaradacaq.

**✍ Səbuhi HƏSƏNOV**

## Muxtar respublikada turizmin inkişafı diqqət mərkəzində saxlanılır

***Müasir dövrdə turizm cəmiyyətin sosial-iqtisadi həyatında oynadığı rola görə iqtisadiyyatın dinamik inkişaf edən sahələrindən birinə çevrilib. Bu gün turizm yeni iş yerlərinin açılmasında, əhalinin səmərəli məşğulluğunun təmin edilməsində mühüm rol oynayır.***

Ölkəmizdə turizmin inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz ikinci dəfə hakimiyyətə qayıdandan sonra da bu sahəni diqqət mərkəzində saxlamış, ilk dəfə 1999-cu il 4 iyun tarixdə "Turizm haqqında" Qanun qəbul edilmiş, turizm sahəsinin hüquqi əsasları, turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydaları müəyyənləşdirilmişdir.

Ümummilli liderimizin turizm sahəsində müəyyənləşdirdiyi strateji xətt hazırda ölkəmizdə, o cümlədən muxtar respublikamızda da uğurla davam etdirilir. Ötən dövr ərzində muxtar respublikada bütün sahələrdə infrastruktur yenilənmiş, müasir avtomobil yolları inşa olunmuş, tarixi yaddaşı özündə əks etdirən qədim memarlıq abidələri bərpa edilərək əvvəlki görkəmlərinə qaytarılmış, yeni otel və istirahət mərkəzləri tikilmiş, Duzdağ Fizioterapiya Mərkəzi və Darıdağ Arsenli Su Müalicəxanası müasir tələblər səviyyəsində yenidən qurulmuşdur.

Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı 2016-cı ildə keçirilmiş müşavirədə Ali Məclisin Sədri demişdir: ***"Bu gün ölkələrin əsas gəlir mənbələrindən biri kimi turizmin inkişafı məsələləri xeyli aktuallaşıb. Azərbaycanda bu sahədə kompleks tədbirlər görülmüş, yeni turizm infrastrukturları yaradılmışdır. Naxçıvan Muxtar Respublikasında da bu sahədə bir sıra tədbirlər həyata keçirilmişdir. Hazırda muxtar respublikada tarix-mədəniyyət abidələrinin, zəngin təbiətin, şəfalı suların, təbii müalicə mərkəzlərinin mövcudluğu turizmin inkişafı üçün geniş imkanlar yaratmışdır..."***

Ötən illər ərzində beynəlxalq standartlara cavab verən mehmanxanalar, müasir əyləncə və iaşə obyektləri, Ağbulaq İstirahət Mərkəzi tikilmiş, Uzunoba Su Anbarında yeni istirahət mərkəzi – Naxçıvan şəhər çimərliyi istifadəyə verilmiş, yeni turizm marşrutları yaradılmışdır.

Turizm sahəsinin inkişafı istiqamətində muxtar respublikada Naxçıvan Turizm İnformasiya Mərkəzi yaradılmış, Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərində Turizm və otelçilik ixtisasları açılmış, İran İslam Respublikası və Türkiyə Respublikası ilə sərhəd-keçid rejimi sadələşdirilmiş, yeni beynəlxalq marşrutlar təşkil edilmişdir.

Bu istiqamətdə həyata keçirilən tədbirlər 2017-ci ilin ilk yarımilində də davam etdirilmişdir. Ötən dövr ərzində muxtar respublikaya infotur təşkil olunmuş, Türkiyə, İran, Kipr, Küveyt və Azərbaycanın müxtəlif turizm şirkətlərindən gəlmiş 220 sahibkar və turizmçi Naxçıvanın turizm imkanları, tarixi, dini abidələri, müalicəvi yerləri ilə tanış olmuşlar.

Bütün sahələrdə qeydə alınmış dinamik inkişafla yanaşı, muxtar respublikanın təhlükəsiz region kimi tanınması da buraya gələn turistlərin sayının artmasına müsbət təsir göstərmişdir. Əgər 1995-ci ildə muxtar respublikaya 38,6 min nəfər turist gəlmişdirsə, bu göstərici 2006-cı ildə 93,9 min nəfər, 2010-cu ildə 287,6 min nəfər, 2016-cı ildə 403,3 min nəfər olmuşdur. 2016-cı ildə muxtar respublikaya gələn turistlərin sayı 1995-ci illə müqayisədə 10,4 dəfə artmışdır. Cari ilin ilk yarımili ərzində muxtar respublikaya gələn turistlərin sayı bir il öncəyə nisbətdə 4,2 faiz artaraq 195 min nəfəri ötmüşdür.

Naxçıvan şəhərinin 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı elan olunması muxtar respublika haqqında dolğun məlumatların dünya ictimaiyyətinə çatdırılmasına, turizmin inkişafına geniş imkanlar yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***



*12 avqust Beynəlxalq Gənclər Günüdür*

## Naxçıvanda dövlət gənclər siyasəti uğurla həyata keçirilir

***1998-ci il avqustun 12-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində gənclərlə iş sahəsində keçirilən beynəlxalq konfransda hər il avqustun 12-nin dünyada “Gənclər Günü” kimi qeyd olunması qərara alınmışdır. Həmin tarixdən etibarən Beynəlxalq Gənclər Günü Azərbaycanda da qeyd olunur.***

Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənc nəsillə bağlayır. Sağlam gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün ən başlıca məsələdir. Çünki ölkənin gələcəyi, müqəddəratı gənclərin potensialından asılıdır.

Ölkəmizdə gənclər siyasətinin əsasını ümummilli liderimiz Heydər Əliyev qoymuşdur. Ulu öndər sağlamdüşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi kimi daim diqqət mərkəzində saxlamış, gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin olunmasını vacib məsələ elan etmişdir. Hələ ötən əsrin 70-ci illərindən sağlam gənc nəslin yetişdirilməsini diqqətdə saxlayan dahi şəxsiyyət onların hərtərəfli təhsil alması, hərbi sahədə ixtisaslı kadr kimi yetişməsi qayğısına qalmışdır. Bu dövrdə şəhər, rayon və kəndlərdə məktəb binaları, idman obyektləri tikilmiş, gənclərin asudə vaxtının səmərəli təşkili və milli ruhda tərbiyələnməsi sahəsində ardıcıl tədbirlər görülmüşdür.

Ölkəmiz müstəqillik qazandıqdan və ulu öndər xalqın təkidli tələbi ilə yenidən ali hakimiyyətə qayıtdıqdan sonra isə Azərbaycanda dövlət gənclər siyasətinin əsası qoyulmuşdur. 1994-cü ildə ölkəmizdə Gənclər və İdman Nazirliyi yaradılmış, 1996-cı il fevralın 2-də Azərbaycan Gənclərinin I Forumu keçirilmişdir. Ümummilli liderin müvafiq sərəncamı ilə birinci forumun keçirildiyi gün – fevralın 2-si Azərbaycanda Gənclər Günü elan edilmişdir. Dahi şəxsiyyət bu sahənin hüquqi bazasının yaradılması, gənclərlə işin daha da təkmilləşdirilməsi məsələlərini də diqqət mərkəzində saxlamış, 2002-ci ildə



“Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Ulu öndər gənclərin qarşısında mühüm vəzifələr qoyaraq deyirdi: ***“Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir”.***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev gənclərin təhsil alması, sağlam və vətənpərvər böyüməsinə xüsusi diqqət yetirir. Dövlət başçısının sərəncamları ilə ölkəmizdə gəncliyin inkişafı ilə bağlı dövlət proqramlarının qəbul olunması, Azərbaycan gənclərinin növbəti forumlarının keçirilməsi bu sahədə görülən işlərin əhatə dairəsini daha da genişləndirmişdir. Bu gün ölkəmizdə təhsil sahəsində aparılan islahatlar gənclər siyasətinin ən vacib istiqamətlərindən birini təşkil edir. Azərbaycanın müxtəlif bölgələrində müasir standartlara cavab verən məktəb binaları tikilib istifadəyə verilir, orta və ali təhsil ocaqları müasir avadanlıqlarla təchiz edilir. Elmi müəssisələrin, məktəblərin kompüterləşdirilməsi, gənc nəslin virtual dünyaya çıxışının təmin edilməsi, onların informasiya texnologiyaları ilə işləmək vərdişlərinə yiyələnmələri üçün atılan məqsədyönlü addımlar Azərbaycanda insan kapitalının inkişafına xidmət edir. Ölkə Prezidentinin “2015-2025-ci illərdə Azərbaycan Gənclərinin İnkişaf Strategiyası” nın təsdiq edilməsi haqqında Sərəncamı bu baxımdan mühüm əhəmiyyət daşıyır.

Gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılması da vacib şərtdir. Dövlət başçısının ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilmişdir.

Bu gün Naxçıvan Muxtar Respublikasında da gənclər siyasəti uğurla həyata keçirilir, gənclərin milli ruhda tərbiyəsi diqqət mərkəzində saxlanılır. Onların ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, sosial problemlərinin həlli, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi, bütövlükdə, muxtar respublikada gənclərlə iş sahəsində həyata keçirilən tədbirlərin əsasını təşkil edir. Son illər muxtar respublikada Gənclər Mərkəzi, kitabxanalar, mədəniyyət evləri, ali təhsil müəssisələrində yeni tədris korpusları, məktəb binaları, olimpiya-idman kompleksləri, idman mərkəzləri və digər obyektlər tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Gənclərin asudə vaxtlarının səmərəli təşkili, yaradıcılıq potensiallarının üzə çıxarılması da daim diqqət mərkəzində saxlanılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov gənc nəslin əsl vətəndaş kimi yetişdirilməsi zərurətini qeyd edərək demişdir: ***“Biz gələcəyimizin formalaşması qayğısına bu gündən qalmalıyıq. Muxtar respublikamızın gələcəyi bugünkü gəncliyin təhsildə nə dərəcədə yiyələnməsindən, tariximizi, dilimizi, adət-ənənələrimizi necə öyrənməsindən, milli dəyərlərimizi hansı səviyyədə mənimsəməsindən, əsl vətəndaş kimi formalaşmasından asılıdır. Gənc nəsil vətənpərvərlik, Azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında tarixi-mədəni irsimizə, milli və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunmalı, onlar öz intellektual və yaradıcı potensiallarını müstəqil Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafına sərf etməlidirlər”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” 2012-ci il 31 yanvar tarixli Fərmanı muxtar respublikamızda gənclərə göstərilən yüksək diqqət və qayğının daha bir ifadəsidir. Fərmana əsasən Naxçıvan Muxtar Respublikası gənc istedadlarının “Qızıl kitabı” təsis olunmuş, kitaba adları yazılmış gənc istedadlar üçün təqaüdlər verilməsi qaydaları təsdiq edilmişdir. Dövlət gənclər siyasətinin tərkib hissəsi kimi Ali Məclis Sədrinin 2012-ci il 29 mart tarixli Fərmanı ilə muxtar respublikada Gənclər Fondu yaradılmış, 2014-cü ilin aprel ayında



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan şəhərində Gənclər Mərkəzi istifadəyə verilmiş, fondun fəaliyyəti gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardır.

Son illər muxtar respublikanın şəhər və rayonlarında olimpiya-idman komplekslərinin, idman mərkəzlərinin, uşaq-gənclər idman məktəblərinin, şahmat məktəblərinin, stadionların, süni örtüklü mini-futbol meydançalarının, orta məktəblərdə idman zallarının və sadətipli idman qurğularının istifadəyə verilməsi gənc nəslin fiziki sağlamlığının qorunması və kütləvi bədən tərbiyəsinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Bu imkanlardan istifadə edən gənclərimiz idman sahəsində uğurlar qazanır, muxtar respublikanı Azərbaycan və dünya miqyasında keçirilən idman yarışlarında və çempionatlarda layiqincə təmsil edirlər.

Gənclərin asudə vaxtlarının səmərəli təşkili də dövlət gənclər siyasətinin tərkib hissəsidir. Muxtar respublikada bu sahədə ardıcıl tədbirlər həyata keçirilir, gənclərin mənalı istirahəti təmin edilir. Ağbulaq İstirahət Mərkəzində gənclərin yay məktəblərinin keçirilməsi bu baxımdan əhəmiyyətlidir. Yay tətili zamanı təbiət qoynunda dincələn gənclər mənalı istirahətə yanaşı, muxtar respublikanın təbiətini, turizm potensialını tanımaq imkanı əldə edir, burada təşkil olunan yarış və intellektual müsabiqələrdə iştirak edərək asudə vaxtlarını səmərəli keçirirlər. Sağlamlıq imkanları məhdud gənclərin cəmiyyətə inteqrasiyası istiqamətində görülən işlər də bu sahədə atılan mühüm addımlardandır. 2014-cü ildə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi, audio və elektron kitabxanalar istifadəyə verilmiş, bu kateqoriyadan olan gənclərin təhsili, məşğulluğu və asudə vaxtlarının səmərəli təşkili məqsədilə dövlət proqramı qəbul olunmuşdur.

Muxtar respublikada gənc ailələrin mənzil şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzindədir. Son illər yeni yaşayış binalarının tikilib gənc ailələrə verilməsi bu sahədə görülən işlərin davamıdır. Mənzillərin güzəştli ipoteka kreditləri ilə təqdim olunması gənc ailələrə mənzil sahibi olmaq imkanı yaradır.

*Bu gün Naxçıvan Muxtar Respublikasında gənclər milli dəyərlərimizə hörmət ruhunda tərbiyə olunur, yeni ideyaların təşəbbüskarı və dövlət idarəçiliyində aparıcı qüvvə kimi formalaşır, idman, elm, mədəniyyət, incəsənət və digər sahələrdə böyük nailiyyətlər əldə edirlər. Ən əsası isə muxtar respublika gəncləri dövlətçilik ənənələrini daim uca tutur, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sadaqət ruhunda böyüyürlər.*

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Vətənpərvərlik: qəhrəmanlıq, məğlubedilməzlik, torpağa, xalqa, dövlətçiliyə bağlılıq aşılayan ali duyğu

***Ən ali və əzəli hisslərdən, duyğulardan biri olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elinə, obasına, torpağına, vətəndaşı olduğu ölkəsinə sonsuz məhəbbətini ifadə edir. Vətənpərvərlik təkcə Vətəni sevmək deyil, həm də Vətən naminə var gücü ilə çalışmaq, onun yolunda fədakarlıqlara hər an hazır olmaq, Vətənin, xalqın, cəmiyyətin inkişafı naminə öz səylərini əsirgəməməkdir.***

Vətənpərvərlik həm də elə ali bir duyğu, ürək yanğısıdır ki, bu duyğu, bu yanğı insanı zirvələrə, səmalara yüksəldir, ona qəhrəmanlıq, məğlubedilməzlik, torpağa, xalqa, dövlətə, dövlətçiliyə bağlılıq, yurda sevgi, milli hədəflərə inam aşılayır. Vətənpərvərlik ən çətin anlarda belə, insanları azadlıq uğrunda mübarizəyə səfərbər edir, onlara cəsarət, güc verir.

Ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyəti hər bir azərbaycanlı üçün ən böyük vətənpərvərlik nümunəsidir. Ümummilli lider öz xalqını böyük məhəbbətlə sevən vətənpərvər bir şəxsiyyət idi. Məhz ona görə də 1993-cü ildə xalqın çağırışına səs verərək doğma Vətənimizi bəlalardan xilas etmək üçün tarixi bir missiyanı öz üzərinə götürmüşdü. Çünki ulu öndərin vətənpərvərliyi mübarizə ruhlu idi, çünki müharibə gedirdi və ərazi bütövlüyü pozulmuş ölkəni işğalçılardan qorumaq lazım gəlirdi. Həmin dövrdə müstəqilliyimizə qəsd edən daxili və xarici düşmənlərə qarşı mübarizə aparmaqla yanaşı, dövlət quruculuğu prosesini də davam etdirmək, ölkəni gücləndirmək vacib idi. Bütün bunları isə yalnız və yalnız böyük dövlət idarəçiliyi təcrübəsinə malik, nüfuzlu bir şəxs edə bilərdi. O, dahi şəxsiyyət Heydər Əliyev idi...

Ulu öndərin vətənpərvərliyi, eyni zamanda, müasir elm və mədəniyyətin nailiyyətlərinə söykənən maarifçilik mahiyyəti daşıyırdı. Böyük mənada digər xalqlara və ölkələrə kin-küdurətdən, ədavətdən uzaq, yalnız öz ölkəsinin, dövlətinin və cəmiyyətinin inkişafına yönəlmiş vətənpərvərlik idi.

Vətənpərvərlik hissinin formalaşdırılması milli mənlik şüurunun inkişaf etdirilməsi ilə birbaşa bağlıdır. Çünki milli mənlik şüuru milli özünəməxsusluğun bütün xüsusiyyətlərini özündə cəmləşdirir. Özünü ölkəsinin əsl vətəndaşı hesab edən hər bir şəxs əməli fəaliyyətini də məhz xalqa və Vətənə layiqli xidmət istiqamətində qurur. Buna görə də ulu öndərimiz daim Vətən və xalq mənafeyinin şəxsi maraqlardan üstün tutulmasının vacib şərt olduğunu vurğulayıb: ***“Milli mənlik hər bir adamın özünün milli mənsubiyyətini ətraflı dərk etməsinə imkan yaradır. Milli mənliyi olan şəxs milli həyatın heç bir hadisəsinə laqeyd qala bilməz. Vətən, torpaq məhəbbəti, millətin və xalqın qayğıları onun şəxsi istək və arzularını üstələyir, onu xalq üçün müəyyən fəaliyyət göstərməyə sövq edir”.***

Həyatı və fəaliyyəti hər birimiz üçün nümunə olan dahi şəxsiyyətin yoluna sədaqətli hər bir kəs öz fəaliyyətində məhz bu amilləri ön planda tutur, Onun göstərdiyi işıqlı yolla, Vətən yanğısı ilə doğma yurdumuza təmənnasız xidmət yolu ilə irəliləyir, həyatının mənasını məhz bunda görür.

Görkəmli ictimai-siyasi xadim və yazıçı Nəriman Nərimanovun qeyd etdiyi kimi: *“Vətənin qədrini o kimsə bilər ki, Vətən ilə onun ruhən rabitəsi olsun, Vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün... Siz ata-babalarınızın müqəddəs yerlərinə o vaxt Vətən deyə bilərsiniz ki, onun sahibi olasınız”.*

Bəli, bu, reallıqdır ki, hər xalqa öz ölkəsinin sahibi olmaq, özünün milli dövlətini qurmaq, ən ali dəyərlərini özündə ehtiva edən bayrağını yaşadığı ölkəsinin ərazisində dalğalandırmaq xoşbəxtliyi nəsib olmur. Bu baxımdan Azərbaycan xalqı dünyanın ən xoşbəxt xalqlarından biridir. Çünki Azərbaycan xalqının bu gün müstəqil dövləti, möhtəşəm bayrağı vardır. O bayraq ki ilk dəfə böyük cəsarətlə qədim və müqəddəs Naxçıvan torpağında səmalara yüksəlib. O bayraq ki onun əzəmətlə dalğalanması üçün yüzlərlə insan baldan şirin canını fəda edib. O bayraq ki xalqımızın azadlığa bəslədiyi sevgidən qaynaqlanan əzmkar və davamlı mübarizəsi ilə çoxsaylı qurbanlar bahasına bu gün müstəqil Azərbaycan Respublikasının ərazisində dalğalanır. O bayraq ki yağı düşmənin bir il bundan əvvələdək işğalda saxladığı hərbi-strateji yüksəklik olan Lələtəpədə dalğalanmaqla düşmənə gözdağına çevrilib. O bayraq ki 2016-cı ilin aprelinədək düşmən tapdağı altında inləyən torpağımıza can verib, abadlıq, quruculuq, sevinc gətirib. O bayraq ki Cocuq Mərcanlı ilə başlayan Böyük Qayıdışın xəbərçisinə çevrilib. O bayraq ki Şuşada, Laçında, Xankəndidə dalğalanacağı günü həsrətlə gözləyir. O bayraq ki Azərbaycanın öz ərazisində ikinci qondarma erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcək.

Və o bayraq ki bu gün Azərbaycanın yüzilliklərə söykənən tarixi dövlətçiliyinin qorunub yaşadıldığı, 27 illik blokadaya baxmayaraq, böyük vətənpərvərliklə tikilib ucaldılan, düşmənə gözdağına, dostun qürur mənbəyinə çevrilən Naxçıvanda ən yüksək zirvədə əzəmətlə dalğalanır.

**Rauf KƏNGƏRLİ**

***Müstəqilliyimizin ilk illərində tikinti sektorunda bütün məhsullara olan tələbat, sadəcə, idxal hesabına ödənilirdisə, bu gün yerli istehsal, daxili imkanlar hesabına ödənilir. Şübhəsiz, yerli inşaat materialları xaricdən gətirilən məhsullardan həm keyfiyyəti, həm də qiymətlərinin sərfəli olması ilə fərqlənir. İnşaat sektorunda yerli tikinti materiallarından istifadə edilməsi xaricə valyuta axınının qarşısını alır, eyni zamanda məşğulluq məsələlərinin həllinə, əhalinin sosial rifah halının yaxşılaşmasına səbəb olur. Tikinti-quruculuq tədbirlərinin geniş miqyas alması ilə inşaat materiallarına olan tələbat da ilbəil artmaqdadır. Dövlətimizin iqtisadi qüdrətinin artması və əhalinin sosial rifah halının yaxşılaşması nəticəsində nəinki dövlət və özəl sektorda, hətta fərdi yaşayış evlərinin tikintisində də böyük canlanma müşahidə olunmaqdadır. Təkcə bir fakta diqqət yetirək. Əgər 1989-cu ildə muxtar respublikada tikinti sektorunda bir ay ərzində orta hesabla 2176 ton betondan istifadə edilirdisə, indi bu qədər beton, təxminən, bir gün ərzində inşaat işlərinə sərf olunur. Öz-özlüyündə bu rəqəm inşaat sektorunun hansı miqyasda böyüdüyünün göstəricisidir.***

*İstehsal müəssisələri*

## Kərpickəsən insanların çalışdığı müəssisə haqqında bir neçə söz



Bu gün muxtar respublikanın tikinti sektorunda ən çox ehtiyac duyulan inşaat materiallarından biri də kərpicdir. 2005-ci ilədək bu məhsula olan tələbat idxal hesabına ödənilirdi. Bu da, təbii ki, dövlət büdcəsindən külli miqdarda vəsaitin xaricə axmasına, nəqliyyat xərclərinin çoxalmasına, görülən işlərin qiymətinin artmasına və vaxt itkisinə səbəb olurdu. Ancaq 2005-ci ildə "Gəmiqaya Kərpic Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətə başlamasından sonra bu sahədə vəziyyət köklü surətdə dəyişildi.

Artıq müəssisənin fəaliyyətə başlamasından on iki il ötür. Müəssisədə yaradılan şəraitlə maraqlanmaq, iş prosesi ilə yaxından tanış olmaq üçün ötən günlərdə yolumuzu adıçəkilən ünvandan saldıq. Tanışlıq zamanı öyrəndik ki, son illərdə genişlənən quruculuq tədbirləri Kərpic Zavodunun istehsal gücünün artırılması və qış mövsümündə də tam gücü ilə işləməsi zərurətini yaradıb. Bu məqsədlə müəssisə tərəfindən layihə hazırlanıb. Həmin layihəyə uyğun olaraq qurutma sexində Türkiyə istehsalı olan və kompüterlə idarə edilən müasir texnoloji avadanlıqlar quraşdırılıb, kərpiclə dolu diyircəkli arabaların avtomatik hərəkəti üçün dəmir relslər çəkilib, istiliklə təminat və nəmliyin aradan qaldırılması məqsədilə xüsusi qurğular qurulub. Eni 12, uzunluğu 50 metr olan süniqurutma sexi 4 kameradan ibarətdir. Burada iş prosesi mərhələli şəkildə həyata keçirilir. İlk olaraq hər kameraya 13 min ədəd kərpic yığılır. İlkin mərhələdə kərpicin nəmliyi götürülür, daha sonra qurutma prosesi başlanır. Rejimə uyğun olaraq hər 7-15 dəqiqədən bir qapılar avtomatik açılır, hər kameradan kərpic dolu birdiyircəkli araba xaric olmaqla, digəri sexə daxil olur. Ümumilikdə, qurutma sexinin 8 saatlıq iş rejimində gündəlik istehsal gücü 20 min kərpicdir. Kərpicbişirmə sexində yaranan istilik xüsusi borularla aspirator vasitəsilə sorulub süniqurutma sexinə ötürülür. Bununla həm istilik sisteminin dövriyyəsi təmin edilir, həm də enerji itkisinin qarşısı alınır. Zərurət yarandıqda isə qurutma sexində qurulmuş istilik avadanlığından da istifadə edilir. Qurutma sexinin istifadəyə verilməsi ilə zavodun mövsümdən asılılığı aradan qaldırılıb, müəssisənin fasiləsiz fəaliyyəti təmin edilib.

"Gəmiqaya Kərpic Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində bir-birini tamamlayan kərpickəsmə, kərpicbişirmə və qurutma sahələrində istehsal prosesi təkmilləşdirilib. Keyfiyyətli məhsul istehsalı üçün daha müasir texnoloji avadanlıqların alınıb quraşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilib. Layihəyə uyğun olaraq kəsmə sexində yeni müasir texnoloji avadanlıqlar quraşdırılıb. Burada xammalın iki mərhələdə üyüdülməsi təmin edilib, kərpicbişirmə sexində əlavə sobalar tikilib, mövcud sobaların daxili odadavamlı kərpiclə üzlənib. Süniqurutma sexində isə Türkiyə istehsalı olan daha bir istilik avadanlığı quraşdırılıb. İstehsal olunan məhsulun təbii hava şəraitində qurudulması və saxlanılması üçün ərazidə əlavə çardaqlar qurulub, rəflər hazırlanıb, zavod daxilində yük daşınması üçün yüksək manevr etmək imkanlarına malik müasir texnikalar alınıb.

Təqdirəlayiq haldır ki, fəaliyyətə başlayan zaman zavod gün ərzində 25 min ədəd kərpic istehsal edirdisə, hazırda istehsal müəssisəsinin 45-50 min ədəd kərpic istehsal etmək imkanı var. Onu da qeyd edək ki, bu kərpiclərlə tikilən evlər yayda sərin, qışda isə isti olur.

Müəssisə daxili bazarı keyfiyyətli məhsullarla təmin etməklə bərabər, əhalinin məşğulluğuna da böyük töhfə verib.

Müəssisədə ərazinin mühafizəsi, texniki təhlükəsizlik, əmək və yanğından mühafizə qaydalarına da ciddi əməl olunur. Zavodda işçilərin əksəriyyəti gənclərdir. İstehsal müəssisəsi onlar üçün həm də praktik peşə təhsili məktəbi rolunu oynayır. Onlara təcrübəli mütəxəssislər tərəfindən istehsal prosesi haqqında ətraflı məlumat verilir, gələcəkdə müstəqil olaraq işləmələri üçün hərtərəfli köməklik göstərilir. Əlavə olaraq onlarla texniki təhlükəsizlik, yanğından mühafizə barədə də maarifləndirmə tədbirləri aparılır.

Zavodda olduğumuz müddətdə burada işləyən ustalarla da söhbət etmək imkanımız oldu. Ustalardan Şahin Həsənov bizimlə söhbətində dedi ki, on ildən artıqdır, bu zavodda işləyir. Böyük zəhmət tələb edən işdə çalışsa da, qarşılığında yüksək əməkhaqqı alır, ailəsinin güngüzəranını yaxşılaşdırır. Kərpic kəsmək dədə-baba sənətidir. Hələ uşaqkən məhəllələrində böyüklərin bir yerə yığışaraq gənc ailələr üçün çiy kərpic kəsdiklərini çox görüb. Əvvəlcə bunun üçün seçilən torpağa su vurular, bir neçə saat keçdikdən sonra adamlar onu ayaqlayar, içinə saman-külәş qatardılar. Palçıq yetərli hala gəldikdən sonra qəliblərə vurulardı. Beləcə, kərpiclərin sayı da gündən-günə çoxalar, sonra isə usta-bənnalar bu kərpicləri alıb divar hörərdilər. Uşaqlıq illərimdən buna çox maraq göstərərdim. Evin istifadəyə verilməsi isə əsl toy-bayram olardı. Qohum-əqrəba təzə evə kilimdən, xalça-palazdan hədiyyə edər, otaqları döşəyərdilər. Bir sözlə, kərpicin kəsilməsindən evin döşənməsinədək olan proses xalqımızın adət-ənənələrini özündə birləşdirərdi. Bu Kərpic Zavoduna işə düzələndə, sözün düzü, bir az çəkinirdim, öz-özümə deyirdim ki, yəqin ki, hər şey əl əməyi ilə başa gəlir. Ancaq burada gördüm ki, ən çox insan zəhməti tələb edən işləri indi texnikalar yerinə yetirir. Ustanın işi isə prosesin gedişinə nəzarət etmək, kərpiclərin keyfiyyətli istehsalına diqqət yetirməkdir. Axı, necə olsa, bu kərpiclər evlərin, binaların ucaldılmasında istifadə edilir. Bunlardan sabah mənim bir yaxınım da istifadə edib, ev tikə bilər. Ümumiyyətlə, keyfiyyət, halallıq hər şeydən öndə gəlir. Əlimi bu sənətə öyrətdiyim üçün çox şadam. Çünki halal zəhmətlə çörək qazanır, ailəmi dolandırıram.

Digər işçilərdən Bəxtiyar Quliyev və Əjdər Səfərov da bizimlə həmsöhbət oldular. Onların dediklərindən: "Buraya ilk gəldiyimiz vaxtlarda o qədər də, necə deyərlər, işə bişməmişdik. Peşəkar ustaların yanında çalışaraq özümüzə təcrübə qazandıq. Onlar bizə bu işin sirlərini öyrətdilər. İndi usta kimi çalışırıq. Onu da deyək ki, ustalığa gedən yol heç də asan olmayıb. Bir işi öyrənmək üçün gərək həvəsin ola. Həvəsin olmasa, iş sənə çətin gələr, tez bezərsən. İndi usta kimi çalışsaq da, hər gün yeni bir şey öyrənirik".

*Bəli, bu gün regionumuzda son illərin möhtəşəm inkişaf strategiyasının nəticəsi olan daha bir layihə reallaşıb. İnanırıq ki, belə zavodların sayı ilbəil artacaq, onlar muxtar respublikanın daha da çiçəklənməsinə xidmət edəcəkdir. Bu zavodların açılması həm də müxtəlif sənətlər üzrə ən gözəl sənətkarların, ustaların yetişməsinə şərait yaradır. Usta əli, usta bacarığı isə tikinti-quruculuq işlərində ən vacib amillərdəndir.*

**Nail ƏSGƏROV**

## Sığorta ödənişləri qanuna əsasən aparılır

***Cəmiyyət inkişaf etdikcə sığortanın faydalarından istifadə imkanları da artır. Bu sahədə aparılan işlərin təcrübəsi göstərir ki, burada müəyyən riskli hadisələr zamanı ödənilən sığorta məbləği məsələləri mühüm yer tutur. Ona görə də sığorta fəaliyyətlərinin tənzimlənməsi üzrə mövcud qanun və qaydalara görə hansı riskli halların sığorta hadisəsi hesab olunduğunun bilinməsi vacibdir.***

Qeyd edək ki, sığorta gözlənilməz hadisələrdən zərərçəkmiş insanların maddi itkilərini aradan qaldırmaq məqsədi daşıyır. Başqa sözlə, sığortanın hansı hadisələrə təminat verməsi icbari sığortalarda qanunla və bağlanılmış müqavilə ilə, könüllü sığortalarda isə müəyyənləşdirilmiş qaydalar və tərəflər əsasında bağlanılmış müqavilə əsasında təyin olunur. Sığortadan gözlənilən nəticələr isə həm iqtisadi, həm də sosial səmərə baxımından çox əhəmiyyətlidir. Belə ki, sığorta olunmaqla insanlar öz həyatı, sağlamlığı və əmlakına qarşı ola biləcək müəyyən gözlənilməz və bədbəxt hadisələr nəticəsində dəymiş maddi zərərləri aradan qaldıra bilərlər.

İnsanın rastlaşdığı gözlənilməz və bədbəxt hadisələr çoxdur. Lakin bunların hamısı sığorta hadisələri hesab olunmur. Sığorta hadisələri təsadüfi, gözlənilməz, əvvəlcədən müəyyən olunmayan hadisələrin nəticəsi olmalıdır. Bundan əlavə, qeyd etmək lazımdır ki, sığorta olunmaq riskli hadisənin baş verməsinin qarşısını almır, yalnız onun törətdiyi maddi itkiləri aradan qaldırmağa xidmət edir. Belə ki, daşınmaz əmlak sığorta olunub deyə, burada yanğının baş verməyəcəyinə heç kim zəmanət verə bilməz. Bu yalnız yanğın, zəlzələ, subasma və sair kimi təsadüfi, əvvəlcədən bilinməyən, təkrarolunan hadisələrin səbəb olduğu zərərlərin aradan qaldırılmasına xidmət edir. Ona görə də nəzərə alınmalıdır ki, xarakterində təsadüfilik, gözlənilməzlik, əvvəlcədən müəyyən edilməməzlik olmayan hadisələr üçün sığorta işi aparılmır və bu hadisələr sığorta hadisəsi hesab olunmur. Məsələn, qrunt sularının yer səthinə yaxın olduğu ərazidə özünə ev tikən vətəndaşlar burada hər an subasma ehtimalı olduğunu bildikləri üçün bu hadisədən daşınmaz əmlakını sığorta etdirə və müvafiq olaraq da həmin hadisə baş verdikdə sığorta ödənişi tələb edə bilməzlər. Eləcə də yaşayış evinin köhnəlikdən, uzun müddət istifadə olunmamasından və baxımsızlıq nəticəsində yararsız vəziyyətə düşməsi də sığorta hadisəsi sayılmır. Bununla yanaşı, yanğın, zəlzələ, daşqın, digər qəfil və gözlənilməz hadisələrdən dəyən zərərləri minimumlaşdırmaq üçün sığorta həmişə insanlara faydalı olub, bağlanılmış müqaviləyə əsasən dəymiş zərərlərin əvəzini ödəyir.

Ölkəmizdə həyata keçirilən konkret sığorta fəaliyyəti növləri üzrə sığorta hadisələri müəyyən olunub. Məsələn, vətəndaşlara məxsus olan daşınmaz əmlakın icbari sığortası zamanı sığorta agentliyi vətəndaşların ödədiyi sığortahaqqı müqabilində bağlanılan müqavilə əsasında baş verə biləcək yanğın, ildırım düşməsi, məişətdə və istehsalatda istifadə olunan qazın partlayışı, elektrik naqillərində baş verən qısaqapanma, buxar qazanlarının, qaz anbarlarının, qaz kəmərlərinin, maşınların, aparatların və digər oxşar qurğu və ya cihazların partlayışı, su, istilik, kanalizasiya kəmərlərinin və yanğınsöndürmə sistemlərinin qəzası, habelə qonşu tikililərdən, yaşayış və qeyri-yaşayış sahələrindən, yaşayış evlərindən və binalarından, mənzillərdən, otaqlardan daxil olan su nəticəsində subasma, hər hansı predmetin və ya onun hissələrinin düşməsi, atılması, dəyməsi, dağılması, axıdılması və digər bu kimi formalarda təsiri, yerüstü nəqliyyat vasitəsinin dəyməsi, təbii fəlakətlər – zəlzələ, vulkan, fırtına, qasırğa, tufan, dolu, sel, daşqın, leysan, yer sürüşməsi və üçüncü şəxslərin hərəkətləri zamanı dəymiş faktiki zərər həcmində sığorta məbləği ödəyir. Göründüyü kimi, yuxarıda qeyd olunan və qanunda da göstərilmiş hadisələrin təsadüfiliyi, onların gözlənilməz olması əsas meyar kimi diqqəti cəlb edir.

Bu sahədə tənzimlənmə işləri sığortaçı ilə sığortaolunan vətəndaş arasında müqavilənin bağlanması ilə başlayır. Belə ki, icbari sığorta müqaviləsinin bağlanılması sığortaçı və sığortaolunanın istəyinə görə deyil, qanunun tələbinə görə aparılır. Qanunda göstərilən şərtlər əsasında sığorta müqaviləsi bağlanıldıqda sığortalıya sığorta agentliyi tərəfindən sığorta şəhadətnaməsi təqdim olunur. Bu sənəddə sığortaçı və sığortalıya aid olan məlumatlarla bərabər, sığorta predmeti, yəni nəyin sığorta olunduğu, sığorta riskləri, sığortahaqqının məbləği, onun verilməsi qaydası və müddəti, eləcə də sığorta məbləği göstərilir. Sığorta müqaviləsi bağlanıldıqda təqdim olunan şəhadətnamədə göstərilən məlumatlara yanaşı, tərəflər arasında hər müqavilə bağlandığı zaman sığorta agentliyinin mütəxəssisləri tərəfindən vətəndaşlara əlavə maarifləndirici məlumatlar da verilir. Bu zaman bildirilir ki, sığorta təminatı qanunda və qaydalarda göstərilən və sığorta şəhadətnaməsində də qeyd olunan hallar üçün verilir.

Sığorta fəaliyyəti məsuliyyətli bir işdir. Ona görə də bu işin dəqiq yerinə yetirilməsi tələb olunur. Belə ki, cəmiyyətimizdə mövcud olan bütün iqtisadi münasibətlər kimi sığorta da burada iştirak edən tərəflərin qarşılıqlı maraq və mənafeləri üzərində qurulmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi, icbari sığortalar üzrə baş vermiş hadisələrə yanaşma həmin icbari sığorta üzrə qanunla müəyyən olunmuş və sığorta müqaviləsində göstərilmiş hadisələr dairəsində baxılmalıdır. Könüllü sığortalar üzrə müqavilələr bağlanılarkən sığorta növü üzrə müəyyən edilmiş qaydalarda göstərilən və müqavilədə əks olunan hadisələr əsas götürülür. Bu sahədə işlərin səmərəli təşkili məqsədilə vətəndaşların bir çox növdən olan sığorta müqavilələrinə qoşulması üçün lazımi işlərin görülməsi, daha çox maarifləndirmə aparılması tələb olunur.

**Əli CABBAROV**

***Dağlıq və dağətəyi zona olan Şahbuz rayonunda aqrar sahənin inkişafına son illər göstərilən diqqət və qayğı hesabına bu bölgəmizdə də nəzərəçarpacaq nailiyyətlərə imza atılıb. Daxili bazarın yerli istehsal məhsulları ilə təminatına öz töhfələrini verən rayonun torpaq mülkiyyətçiləri mövcud şəraitdən və yaradılan imkanlardan səmərəli istifadə edir, bununla həm də öz rifah hallarını yaxşılaşdırırlar.***

## Aqrar sahəyə qayğı bəhrələrini verir

"Kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli Sərəncamının icrası ilə bağlı məhsul istehsalçılarına istifadə etdikləri yanacaq, motor yağlarına görə yardımların və gübrələrin verilməsi cari ilin ilk altı ayı ərzində davam etdirilib, məhsul istehsalçılarına 208 tondan artıq gübrə verilib, yazlıq əkinlə bağlı 5300 manat həcmində vəsait ödənilib.

Kənd təsərrüfatının inkişafına göstərilən daha bir dövlət qayğısının ifadəsidir ki, torpaq mülkiyyətçiləri güzəştli kredit hesabına lizinq vasitəsilə 2017-ci ildə 1 ədəd kombayn, 5 ədəd otdoğrama maşını, 55 ədəd əl ilə otbiçən texnika alıblar.

Belə qayğı hesabına aqrar sahəyə maraq xeyli artıb, bu ilin məhsulu üçün 1389 hektar sahədə payızlıq, cari ilin yazında isə 202 hektar sahədə yazlıq olmaqla, ümumilikdə, 1591 hektar sahədə taxıl əkini həyata keçirilib. Həmçinin cari ildə 424 hektar sahədə kartof, 164 hektar sahədə tərəvəz, 243 hektar sahədə dənli-paxlalı, 9 hektar sahədə bostan bitkiləri və 217 hektar sahədə digər əkinlər aparılıb. Müxtəlif əkinçilik sahələrində məhsul tədarükü davam etdirilir.

Meyvəçiliyin inkişafı da diqqət mərkəzində saxlanılıb, meyvə bağlarından 936 ton məhsul yığılıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə çoxdur.

Cari ildə yaşıllaşdırma tədbirləri davam etdirilib, 3,3 hektar sahədə yeni bağ salınıb, 4660 ədəd yeni meyvə, 420 üzüm tingi əkilib.

Cari ilin ilk altı ayının nəticələri belə deməyə əsas verir ki, rayonun torpaq mülkiyyətçiləri üçün 2017-ci il də uğurlu illərdən biri olacaq.

**Xəbərlər şöbəsi**

*İstirahət ünvanlarımız*

## Milli mətbəx nümunələrimizi təbliğ edən ictimai iaşə obyekti

***Hər bir insan gündəlik iş rejimindən artıq qalan və istirahət günlərindəki boş vaxtını övladlarıyla, ailəsiylə keçirmək üçün müxtəlif məkanlara üz tutur. Bu gün Naxçıvan şəhərində bir neçə nümunəvi istirahət məkanı, ictimai iaşə obyekti mövcuddur. Bu məkanlar içərisində Atabəylər məhəlləsində yerləşən "Nuh yurdu" restoranının öz yeri vardır.***

***Xüsusi layihə əsasında dizayn edilmiş restoran istər şəhərimizin mənzərəsinə verdiyi gözəl töhfələrlə, istərsə də bir-birindən dadlı milli yemək növləri ilə qısa zaman ərzində ailələr üçün sevimli istirahət məkanına çevrilib. "Nuh yurdu" restoranı çox mənzərəli və zövqlə inşa olunub. Burada şəhər sakinlərinin, eləcə də muxtar respublikamıza gələn qonaqların istirahəti üçün hər cür şərait yaradılmaqla bərabər, milli mətbəx nümunələrimiz də tanıdılır.***



Qeyd edək ki, ümumi ərazisi 8624 kvadratmetr olan "Nuh yurdu" restoranı gölətrafı kafedən, müxtəlif quruluşa, dizayna malik iki və üçmərtəbəli restoran binalarından və Nuhun gəmisini xatırladan gəmi maketli kafe-restorandan ibarətdir. Gölətrafı kafedə su üzərində düzəldilmiş 1 ədədi hərəkətli olmaqla, 7 ədəd oturma yeri vardır. Döşəmənin şəffaf şüşədən olması suda bəslənən canlıları müşayiət edib zövq almağa şərait yaradır, buraya gələn hər kəsin diqqətini özünə çəkir. İkimərtəbəli restoran binasının birinci mərtəbəsində 8 otaq var. "Kənd otağı", "Şərq otağı" və "Müasir otaq" adlandırılan otaqların daxili dizayn və quruluşu rəngarəngdir. İkinci mərtəbədə isə hər biri 50 nəfərlik olan iki banket zalı fəaliyyət göstərir. Üçmərtəbəli restoran binası özündə müasir dizayn elementlərini cəmləşdirir. Binanın birinci mərtəbəsində kafeteriya fəaliyyət göstərir. Balıqdan hazırlanmış yeməklərin dadına baxmaq üçün ikinci mərtəbəyə, ət və ətdən hazırlanmış milli yeməklər, o cümlədən türk mətbəxinin ən ləziz yeməklərdən dadmaq istəyənlərə isə üçüncü mərtəbəyə qalxmaq təklif olunur. Burada 300 qonağı rahatlıqla qarşılamaq mümkündür. "Nuhun gəmisi" maketi şəklində hazırlanmış bu kafe istirahət məkanına gələn hər kəsin diqqətini özünə çəkir və böyük maraqla qarşılanır. Kafe 3 açıq, 2 örtülü salondan ibarətdir. İsti yay günlərində burada təklif olunan sərinləşdirici içkilər gələn qonaqların məmnuniyyətinə səbəb olur.

Restorandakı yeməklərin hamısı muxtar respublikamızda yetişdirilən tərəvəzlərdən, yerli istehsalımız olan ət və süd məhsullarından hazırlanır. Milli mətbəximizin, eləcə də türk mətbəxinin ləziz təamları bu məkana üz tutan hər kəsin ürəyincədir. Burda kababın bütün növləri, müxtəlif növ dolma yeməkləri müştərilərə təklif olunur. Naxçıvanın rəngarəng milli mətbəxinin ləziz təamlarından olan qazan pitisi müştərilərin ən çox sifariş verdiyi yeməklərdəndir. Burada fərqliliyi ilə seçilən şirniyyatlar da hazırlanır. Restoran ərazisində balıq yetişdirmək üçün ayrılmış hissədə 8 hovuz yerləşir. Hovuzların hər birində 4 ton balıq saxlamaq mümkündür. Hazırda burada farel, sazan, osetrin balıqları yetişdirilir ki, bu da ilin bütün fəsillərində restorana gələn qonaqlara təzə balıqdan hazırlanmış yeməklər təklif etməyə imkan yaradır. Hər bir müştəri hovuzdan xoşladığı balıq növündən sifariş edə bilər.

Restoranın ərazisində yaşıllıqlar salınıb, oturacaqlar qoyulub. Burada olduğumuz zaman ayrı-ayrı müştərilərlə söhbət etdik. Öyrəndik ki, restoranda müştərilərə göstərilən xidmət, yeməklərin rəngarəngliyi, milli mətbəximizin nümunələrinin ən yüksək səviyyədə təqdim olunması, həmçinin qonaqlara mədəni xidmət göstərilməsi xarici ölkələrdən şəhərimizə gələn turistlərin də razılığına səbəb olur. Onu da qeyd edək ki, restoran 2016-cı ildə Naxçıvanda keçirilən "Plov" festivalında "Ən yaxşı plov" müsabiqəsi üzrə birinci dərəcəli diploma layiq görülüb. Bundan başqa, muxtar respublikada keçirilən "Xalq yaradıcılığı günləri"ndə kulinariya sərgisinin hazırlanmasında fəal iştirakına görə fəxri fərmanla təltif olunub.

*Bəli, "Nuh yurdu" restoranı bu gün Naxçıvan şəhərinin nümunəvi ictimai iaşə obyektlərindən biridir. Muxtar respublikada sahibkarlığa yaradılan şərait onu deməyə əsas verir ki, gələcəkdə turizmin inkişafına töhfə verən belə məkanların sayı daha da çox olacaq.*

**Ramiyyə ƏKBƏROVA**

## Məktəblilərin yay tətili günləri səmərəli keçir



***Məktəblilərin yay tətilinin bir xeyli hissəsi artıq arxada qalıb. Bəs şagirdlərimiz bu tətil günlərində asudə vaxtlarını yetərincə səmərəli keçirə bilirlərmi? Naxçıvan şəhərində bir sıra istiqamətlər üzrə fəaliyyət göstərən məktəbdənkənar müəssisələrdə bunun üçün hərtərəfli şərait yaradılıb. Həmin müəssisələrdən biri də Naxçıvan Muxtar Respublikası Turist-Diyarşünaslıq Mərkəzidir.***

Məlumat üçün bildirək ki, bu məktəbdənkənar müəssisə 1973-cü ildə Gənc Turistlər Stansiyası adı ilə yaradılıb. 2005-ci ildən isə Turist-Diyarşünaslıq Mərkəzi kimi fəaliyyətini davam etdirir. Hərtərəfli qayğı ilə əhatə olunan mərkəzin binası 2013-cü ildə yenidən qurularaq kollektivin ixtiyarına verilib. Buranın yaradılmasında əsas məqsəd uşaqların asudə vaxtlarının maraqlı, əyləncəli keçməsini təmin etmək, gənc nəslə doğma diyarı sevdirmək və vətənpərvərlik hisslərini gücləndirməkdir. Eyni zamanda yeniyetmə və gənclərdə turizm ixtisasına marağı artırmaq, onları regionun turizm potensialının təbliği işinə fəal şəkildə cəlb etmək, tariximizi, milli dəyərlərimizi aşılamaq, tarixi abidələrlə tanış etməkdən ibarətdir. Mərkəzin nəzdində fəaliyyət göstərən ədəbiyyat, tarix, coğrafiya kabinələri və muzey üçün ayrıca otaqlar var. Burada yüksək iş şəraiti yaradılıb. Mərkəzdə 12 dərnək və 100 qrup fəaliyyət göstərir.

Fəaliyyət göstərdiyi dövrdə yüzlərlə məktəbli bu mərkəzə cəlb olunub, burada yaradılmış dərnəklər vasitəsilə onların istedad və bacarıqları üzə çıxarılıb. Mərkəz tərəfindən təşkil olunan ekskursiyalar tədbirlər planına əsasən aparılır. Gənc turistlərə tariximiz, mədəniyyətimiz, incəsənətimiz, mənəvi dəyərlərimiz, turizmin kütləvi formaları öyrədilir və təbliğ edilir. Bunun üçün mərkəzdə "Azərbaycanı sev və öyrən" devizi altında ekspedisiya dəstələri yaradılıb. Yay tətili günlərində daha bir dərnək təşkil edilib. "Kənd turizmi" adlanan bu dərnəyə cəlb olunmuş məktəblilərə muxtar respublikanın turizm potensialı haqqında məlumatlar verilir, onlar diyarımızın gəzməli, görməli yerlərinə aparılır.

Məktəblilərin Azərbaycan mədəniyyəti, incəsənəti, milli kinosu ilə tanış olmaları da diqqət mərkəzində saxlanılır. Bu məqsədlə onlara Azərbaycan filmlərinin nümayişi təşkil edilir.

2016-2017-ci tədris ili ərzində mərkəzdə şair və yazıçılarla, müharibə və əmək veteranları, şəhid ailələri və qabaqcıl müəllimlərlə, eləcə də digər peşə sahibləri ilə görüşlər keçirilib.

Muxtar respublikamızın qədim tarixinin uşaqlar tərəfindən öyrənilməsi baxımından mərkəzdə yaradılmış tarix-diyarşünaslıq muzeyinin fəaliyyətindən razılıqla danışmaq olar. Muzeydə qədim, orta və müasir dövrü özündə əks etdirən eksponatlar yerləşdirilib. Burada "İmamzadə" kompleksi, Hüseyn Cavid məqbərəsi, Mömünə xatın, Yusif Küseyir oğlu, Gülüstan türbələrinin uşaqlar tərəfindən hazırlanan maketlərini görmək olar. Muzeydə orta əsrlərə aid saxsı və boyalı qablar, döyüş və əmək alətləri, XIII-XIX əsrlərə aid kağız, mis, latun pullar, uşaqların Duzdağ Fizioterapiya Mərkəzində olduqları müddətdə tapdıqları fərqli, faydalı daş süxur nümunələri, kətan parça üzərinə muncuqla, sapla toxunmuş gözəl əl işləri nümayiş etdirilir. Mərkəzə cəlb olunmuş məktəblilərin muxtar respublika iqtisadiyyatında önəmli rol oynayan sahibkarlıq subyektlərinə, emal və istehsal müəssisələrinə də ekskursiyaları təşkil olunur.

Mərkəzin Naxçıvan şəhərindəki tam orta məktəblərdə də dərnəkləri təşkil edilib. Belə tədris ocaqlarından biri də 1 nömrəli tam orta məktəbdir. Burada piyada turizm, gənc ekoloq və coğrafiya-diyarşünaslıq dərnəkləri fəaliyyət göstərir. Dərnək üzvlərinin bu dərs ilində Naxçıvan-Şəkərabad, Naxçıvan-Şıxmahmud, Naxçıvan-Tumbul, Naxçıvan-Qaraçuq istiqamətində təşkil edilən piyada yürüşləri yaddaqalan olub. Yürüşlər zamanı şagirdlərə olduqları ünvanlar, həmin yaşayış məntəqələrinin tarixi, mədəniyyət abidələri barədə ətraflı məlumatlar verilib. Bütün bunlar belə deməyə əsas verir ki, adıçəkilən mərkəzin dərnək üzvləri asudə vaxtlarını səmərəli keçirir, yurdumuzun coğrafiyasını, tarixini, turizm potensialını öyrənir, bilik və bacarıqlarını artırırlar.

**Nərminə HƏSƏNOVA**
***mərkəzin dərnək rəhbəri***

## Qızlar arasında üzgüçülük üzrə şəhər birinciliyinə yekun vurulub



*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin Üzgüçülük Mərkəzində 12 avqust – Beynəlxalq Gənclər Günü münasibətilə qızlar arasında üzgüçülük üzrə şəhər açıq birinciliyi keçirilib.*

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin və İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin birgə təşkilatçılığı ilə keçirilən birincilikdə 4 yaş qrupunda 30-dan çox idmançı mübarizə aparıb. Üzgüçülüyün sərbəst üsulu üzrə 25 metr məsafə üzrə yarışın yekununa əsasən, 2000-2001-ci illər təvəllüdlü idmançılar arasında Nuranə Səfərova, 2002-ci il təvəllüdlü idmançılar arasında Tutu Nəsirli, 2003-2004-cü illər təvəllüdlü idmançılar arasında Nigar İsmayıllı və 2005-2008-ci illər təvəllüdlü idmançılar arasında isə Gülan Əhmədova finiş xəttinə hamıdan əvvəl çataraq qalib adını qazanıblar.

Sonda hər yaş qrupunda yer tutan və fərqlənən idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplom və fəxri fərmanları təqdim edilib.

## Mütaliə günü Xalq şairinə həsr olunub

***Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası tərəfindən şəhərimizdəki Təbriz küçəsində yerləşən 1 nömrəli yaşayış binasının həyətində balaca oxucular üçün mütaliə günü təşkil edilib. Tədbir Azərbaycanın Xalq şairi Mirvarid Dilbazinin anadan olmasının 100 illiyi münasibətilə keçirilib.***



Kitabxananın direktor müavini Kəmalə Ağayeva, əməkdaşı Mehriban Seyidova Mirvarid Dilbazinin zəngin poeziya dünyası haqqında uşaqlara məlumat veriblər. Bildirilib ki, tanınmış Xalq şairimizin əsərləri bu gün də sevilə-sevilə oxunur. Şair həm də gözəl tərcüməçi kimi tanınıb.

Vurğulanıb ki, Mirvarid Dilbazi 1912-ci il avqustun 19-da Qazax rayonunda dünyaya gəlib. Şairin "Qadınların hürriyyəti" adlı ilk şeiri 1927-ci ildə nəşr olunub. Şairənin müxtəlif illərdə çapdan çıxan "Bizim səsimiz", "Vətən eşqi", "Sənətkarın xəyalı", "Xatirələr olan yerdə", "Həyat lövhələri" və başqa kitablarında xalqımızın tarixi və müqəddəs dəyərləri, xalqa bağlılıq duyğuları böyük məhəbbətlə tərənnüm edilir.

Sonda Xalq şairinin kitablarından ibarət, eyni zamanda kitabxanaya yeni daxil olmuş 250-dən çox kitabın nümayiş etdirildiyi sərgiyə baxış olub.

**Əli RZAYEV**

## Zəka sahiblərinin mübarizəsində qaliblər müəyyən edilib

***Naxçıvan Şəhər Şahmat Mərkəzində məktəblilərin yay tətilinin səmərəli təşkili məqsədilə yeniyetmələr arasında şahmat üzrə şəhər birinciliyi keçirilib.***



Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov tədbiri açaraq bildirib ki, birinciliyi keçirməkdə məqsədimiz məktəblilərin yay tətilinin və asudə vaxtlarının səmərəli təşkilindən ibarətdir. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin və Naxçıvan Şəhər Uşaq-gənclər şahmat məktəbinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 8-12 yaş qrupunda 50-yə yaxın oğlan və qız şahmatçı mübarizə aparıb.

Yarış İsveçrə sistemi ilə 7 turdan ibarət olmaqla keçirilib. Belə ki, qızlar arasında Fatimə Həsənova, Fidan Vəliyeva və Aysu Şıxəlili, oğlanlar arasında isə Hüseyn Qənbərli, Aslan Bağırov və Murad Abbaslı müvafiq olaraq 8, 10 və 12 yaş qrupunda birinci yerlərə layiq görülüblər.

Sonda hər yaş qrupunda yer tutan şahmatçılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Muxtar Məmmədov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 645